

# İslahatların nəticəsi: Təcrübə, bilik və gənclərin dinamizmi

**_Prezident İlham Əliyev Nahid Bağırovu İsmayıllı Rayon İcra Hakimiyyətinin, Mirhəsən Seyidovu isə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən onların qarşısında tam aydın olan və böyük məsuliyyət tələb edən vəzifələr durduğunu söylədi. Dövlət başçımız gənc kadrların bu yüksək etimadı doğruldacağına və onların fəaliyyətindən həm vətəndaşların, həm də özünün razı qalacağına əminlik ifadə etdi._**

**_İslahatlara alternativ yoxdur. Mən yeni iqtisadi model haqqında öz andiçmə mərasimimdə fikirlərimi ifadə etmişəm. Əsas konturlar o vaxt müəyyən olunub. Ondan sonra aparılan islahatlar, o cümlədən kadr islahatları bu məqsədi güdür. Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər._**

**_İlham ƏLİYEV_**
**_Azərbaycan Respublikasının Prezidenti_**

Həmin tədbir haqqında olan televiziya materialının tamaşaçısı dərhal öz-özünə sual verirdi ki, yeni təyinat alan kadrların qarşısında duran vəzifələr nədən ibarətdir? Prezident həmin sualın cavabını bu şəkildə açıqladı: “Mənim tapşırıqlarımı yerinə yetirmək lazımdır. Bu tapşırıqlar da çox sadədir – vətəndaşlarla bir yerdə olmaq, daim xalq arasında olmaq, xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaq, rayonların sosial-iqtisadi inkişafına töhfə vermək”.

Son iki-üç ilin ictimai-siyasi hadisələri sübut edir ki, Prezident İlham Əliyev idarəetmədə islahatlar prosesini daim inkişaf etdirməkdə qərarlıdır. Dövlət başçımızın “Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 14 yanvar 2019-cu il tarixli fərmanı da məhz bu məqsədlə imzalanıb. Fərmanda qarşıya qoyulan əsas vəzifə Azərbaycanda dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının və qurumlarının fəaliyyətinin optimallaşdırılması, habelə dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin reallaşdırılmasıdır.

Ekspertlərin fikrincə, idarəetmədə islahatlar prosesi ölkəmizin beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirib. Azərbaycan artıq dünyanın reytinq cədvəllərində rəqabət qabiliyyəti dinamik yüksələn dövlət kimi qəbul edilir. Bu, beynəlxalq hesabatlarda da öz ifadəsini tapır. Məsələn, Azərbaycan Dünya Bankının “Hökumətin səmərəliliyi” subindikatoru üzrə 2007-2018-ci illərdə regionda ən çox irəliləyiş edib. Belə ki, müqayisə olunan dövrdə Azərbaycan 7, Qazaxıstan 6, Özbəkistan 5, Gürcüstan 5 və Qırğızıstan 2 pillə irəliləyə bilib. Respublikamız “Qlobal rəqabətlilik hesabatı”nda isə 140 ölkənin arasında məhkəmənin müstəqilliyi meyarına görə 39-cu, hökumət tənzimlənməsinin yükü meyarına görə 3-cü, hökumətin siyasətin davamlılığını təmin etməsi meyarına görə 11-ci, hökumətin dəyişikliklərə reaksiyası meyarına görə 5-ci yerdə qərarlaşıb. “ASAN xidmət”, DOST, ABAD, “Bir pəncərə” İxraca Dəstək Mərkəzi və s. xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi isə 100 faizə yaxınlaşıb.

Dövlət başçımız Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdəki nitqində demişdir ki, islahatlar bizim şüurlu seçimimizdir: “Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır. Bu, imkan verir ki, sosial sahəyə böyük diqqət yetirək”.

Təbii ki, istənilən sahədə aparılan islahatların son nəticədə iki məqsədi olur: ölkə vətəndaşının sosial-rifahının yaxşılaşdırılması və dövlətin iqtisadi qüdrətinin artırılması. Doğrudur, bu zaman bəzi xırda məqsədlər də vardır. Ancaq əsas məqsəd məhz bu iki istiqamətdə fokuslanır. Ona görə də dövlət başçımız xatırladır: “Ulu öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Mən bunu öz çıxışlarımda dəfələrlə demişəm. Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir”.

Cənab Prezident ölkədə aparılan kadr islahatları barədə danışarkən isə cəmiyyətə olduqca vacib olan bir mesaj vermişdir: “Kadr islahatları gedir, bu da zərurətdir, durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbii yolla, burada da heç bir əyintilərə yol verməmək olmaz. Mən bir neçə dəfə bu məsələ ilə bağlı fikirlərimi deyəndən sonra bəziləri başladılar bəzi adamların yaşını hesablamağa ki, bunun 70 yaşı var getməlidir, qətiyyən belə şey ola bilməz. Sonra dedim mən imkan verməərəm ki, kampaniya aparılsın. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər”.

Yeri gəlmişkən, dövlət başçımız fevralın 27-də sabiq Baş nazir Artur Rasi-zadəyə 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordenini təqdim edərkən də bir çox mühüm məqamları yada saldı: “Azərbaycan dövləti sizin fəaliyyətinizi yüksək qiymətləndirir. 2005-ci, 2010-cu, 2015-ci illərdə siz mənim tərəfimdən “İstiqlal”, “Şərəf” və “Şöhrət” ordenləri ilə təltif olunmusunuz. Hesab edirəm ki, bu da dövlət tərəfindən sizin fəaliyyətinizə verilən ədalətli qiymətdir”. Artur Rasi-zadənin bu ali təltifə layiq görülməsini əsaslandıran Prezident dedi: “Baxmayaraq ki, siz artıq təqaüddəsiniz, ancaq həm keçmiş xidmətləriniz, həm də bu gün fəal və birmənalı mövqeyiniz nəzərə alınaraq bu yüksək ordenlə təltif edilmisiniz”. Fikrimizcə, bu, çox böyük qədirşünaslıq və alicənablıq nümunəsi idi.

Bundan başqa, cənab Prezident fevralın 27-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bir sıra ali zabitlərinin həqiqi hərbi xidmətdən istefaya buraxılması haqqında da sərəncam imzalayarkən öz nəcib əməllərini və qədirbilənliyini davam etdirərək hər üç general – leytenantı 3-cü dərəcəli “Rəşadət” ordeni ilə təltif etmişdir.

Fikrimizcə, dövlət başçımızın bu addımının əsas səbəblərindən biri də yaşlı nəsil nümayəndələrinin xidmətinin yüksək qiymətləndirilməsi ilə yanaşı, gənc nəslin vətənpərvərlik tərbiyəsinin daha da artırılmasına zəmin yaratmaqdır. Prezident bu məsələni öz nitqlərindən birində belə xarakterizə etmişdir: “ Gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir -- bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin”.

**_İttifaq MİRZƏBƏYLİ,_**
**_“Xalq qəzeti”_**